UOT-811.11-112
Səhifə: 125-129
https://doi.org/10.59849/2663-8967.2026.2.125

Nigar Nağıyeva
AMEA Nəsimi adına Dilçilik İnstitutu
nagiyevanigar8@gmail.com
https://orcid.org/0009-0002-8457-0272

YENİ ÜNSİYYƏT NÖVÜ OLAN ELEKTRON ÜNSİYYƏTİN BAŞLICA SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Yeni ünsiyyət növü olan elektron ünsiyyət sürətli və fasiləsiz məlumat mübadiləsini təmin edir. Bu ünsiyyət forması zaman və məkan məhdudiyyətlərini aradan qaldırır, insanlar istənilən yerdən əlaqə qura bilirlər. Elektron ünsiyyətdə yazılı və vizual vasitələrdən geniş istifadə olunur, bu da fikirlərin daha aydın çatdırılmasına imkan yaradır. Sosial şəbəkələr, elektron poçt və mesajlaşma proqramları bu növ ünsiyyətin əsas platformalarıdır. Elektron ünsiyyət həm də anonimlik imkanı verdiyindən, bəzən ünsiyyətin səmimiyyətinə təsir göstərə bilər. Məqalədə elektron ünsiyyətin əsas xüsusiyyətləri qeyd olunmuş və onların açıqlamaları verilmişdir.

***Açar sözlər**: ünsiyyət, internet, texnologiya, nitq, məkan.*

Giriş: XX əsrin sonlarında - XXI əsrdə texnologiyanın sürətli inkişafı baş vermişdir. Bu inkişaf nəticəsində ünsiyyət formaları da dəyişmiş, ənənəvi ünsiyyət vasitələrinin yerini elektron ünsiyyət almışdır. Bu inkişafın təzahürü kimi yeni ünsiyyət vasitəsi olan elektron ünsiyyət geniş istifadə alaraq günümüzün ən mühüm kommunikasiya vasitəsinə çevrilmişdir.

Elektron ünsiyyət informasiya və kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə insanlar arasında əlaqə yaratmağa imkan verir. Bu yeni ünsiyyət növü cəmiyyətin bütün sahələrində geniş yayılmış və gündəlik həyatın ayrılmaz hissəsinə çevrilmişdir. Elektron ünsiyyətin özünəməxsus xüsusiyyətləri onun ənənəvi ünsiyyətdən fərqlənməsinə səbəb olmuşdur.

Ünsiyyət canlı və cansız təbiətdəki sistemlər arasında məlumat mübadiləsinin aparıldığı bir əlaqədir. Kommunikativ aktın əsas komponentləri aşağıdakılardır: müraciət edən – ünsiyyət subyekti, qəbul edən – ünsiyyət obyekti, mesaj – ötürülən məlumatın məzmunu, kod – informasiyanın ötürülməsi vasitəsi, rabitə kanalı, nəticə – ünsiyyətin yekununda əldə olunan məlumat.

Yeni ortaya çıxan elektron ünsiyyət, müasir cəmiyyətin həyatında mühüm rol oynayır. Dünyada internet şəbəkəsinin qurulması tarixi 1986-cı ildən başlayır. Həmin vaxtdan bu günə qədər internetin populyarlığı artaraq, onu məsafələri "dəf etmə" bacarığı ilə insanları yaxınlaşdıran, onların görüş yerinə çevrilən, məlumat və əyləncə məkanı olan ünsiyyət dünyasına çevirmişdir. Qısaca desək, internet milyonlarla insanın həyatını əsaslı şəkildə dəyişdirən olduqca əhəmiyyətli və faydalı bir texniki yenilikdir. Əgər internet özü özlüyündə bir mühitdirsə, o zaman ünsiyyət bu mühitə ayrıca bir mənalılıq gətirən vahiddir. Hal-hazırda internet müasir ictimai həyatın bütün sferalarını əhatə edən xüsusi ünsiyyət mühitinə çevrilmişdir. İnternetin bu cür geniş populyarlıq qazanması və müasir texnologiyaların əlçatanlığı ünsiyyətin yeni "sosiomədəni" proseslərinin inkişafına dəstək verir.

Kommunikasiya texnologiyaları dilin inkişafına böyük töhfə verərək, yeni media texnologiyalarının inkişafına və yeni media-dilçiliyinin istifadəsinə gətirib çıxarmışdır. Britaniyalı araşdırmaçı D.Kristal qeyd edir ki, qloballaşmada, xüsusilə internet və mobil rabitə kimi informasiya və kommunikasiya texnologiyalarında irəliləyiş sayəsində linqvistik dəyişikliklərin sürətli və yayılması üçün geniş bir məkan yaratmaqla dil dəyişikliyi prosesini gücləndirdi [4]. Bütün bunlar texnologiyalar istifadəçilərinin qurduğu virtual mühitin yaradılmasına imkan

yaradaraq linqvistik və ya mədəni sərhədə hörmət etməyən yeni sözlərin abreviaturlarını və işarələrini qəbul edə bilir [3]. İnternetin əsas ünsiyyət vasitəsi kimi istifadəsinə aid olan digər bir amil, dilin əks etdirilməsi və həm yazılı, həm də şifahi dilə xas olan özəlliklərin daha da inkişaf etdirilməsi səbəbindən təsadüfi və sinxron mesajların eyni vaxtda yazılması imkanıdır [8]. Həmçinin texnologiyanın inkişafı ilə əlaqədar olaraq, dilin formalaşmasında mühüm rol oynamayan bir çox insanlar bu günkü vəziyyətində qala bilər [6]. Bu məqsədlə, bu demokratikləşmə qeyri-standart formaların ümumi genişlənməsinə və daha çox dilin təbəqələşməsinin ənənəvi standartlarına uyğun gəlməyən yeni normaların meydana çıxmasına şərait yaratdı [5, s.43]. Nəticə etibarilə, texnologiya təkcə dilin dəyişmə ritminə təkan vermir, həm də istiqamətləri müəyyən edir ki, onların nəzərə alınması texnologiyanın müasir sosial-linqvistik hadisələr kontekstində öyrənilməsini zəruri edir.

Kommunikativ fəza ünsiyyət zamanı fikirlərin izahı və anlaşılması üçün lazım olan və bu prosesə təsir edən "xəyali mühit" yaradır. Beləliklə, ünsiyyət mühitinin dəyişməsi ünsiyyət prosesinin də dəyişməsinə səbəb olur.

İnternet reallığın fraqmenti kimi yeni biliyin formalaşmasına yol açan yeni koqnitiv mühiti təqdim edir. Bununla da, internet yeni dəyərlərə əsaslanan öyrədici sistem, unikal sosial fenomen olaraq çıxış edir. Bu fenomenin çoxşaxəliliyi perseptiv-linqvistik ünsiyyət şəklində bir sıra prinsiplə özünü göstərir. Ünsiyyət məkanının texnolojiliyi bu mühitdə hazır fikirlərin ifadə olunma formasından daha çox biliklərin təqdim olunması kimi çıxış edən dilin dəyərini heç də azaltmır. Yeni mühit ənənəvi izah formalarından istifadə edir, lakin bu fürsətləri genişləndirərək müxtəlif sosial fəaliyyəti sahələrinə aid ünsiyyət formalarını bir məkanda birləşdirir.

Dilin əsas funksiyalarından olan öyrədicilik, kommunikativlik və manipulyativlik öz əksini yeni şəraitdə tamamilə tapa bilir. Dilin xüsusi ünsiyyət mühitində müxtəlif elektron kanallar vasitəsilə məlumat ötürməsi zamanı linqvistik araşdırmaların metodologiyalarına yeni baxış tələb edir və dilin işlədildiyi mühitə və bu dilin "daşıyıcısına" müqayisədə tədqiq olunmasını tələb edir [7]. Bu da öz növbəsində bütöv linqvistik nəzəriyyənin müxtəlif aspektlərdə dəyişikliyinə real stimul olur və digər elm sahələrinin linqvistik analizə cəlb olunması üçün əlverişli zəmin yaradır.

D.Kristal yazır: "Bizim üçün yeni mühitə ad tapmaq vacib məsələlərdəndir və biz ona bunlara yaxın ad təklif etmişik: kompüter vasitəli ünsiyyət və ya elektron diskurs" [4, s.12]. Dilimizdə bu terminlərə uyğun gələn elektron ünsiyyət, virtual ünsiyyət, kompüter ünsiyyəti, şəbəkə ünsiyyəti, internet ünsiyyəti, elektron diskurs ifadələri istifadə olunur.

Y.İ.Qoroşko "İnternet linqvistik-disiplinar paradiqmanın formalaşması" adlı məqaləsində elektron ünsiyyət araşdırmalarına dair mövcud yanaşmaların dəqiq analizini həyata keçirir, sosio-linqvistika, psixolinqvistika, mətn dilçiliyi kimi müxtəlif dilçilik sahələrinin metodologiya və yanaşmalarını bildirərək, bununla da xüsusi araşdırma alətlərini formalaşdıran "inteqrativ növ istiqamətin" istifadə olunmasına ehtiyacın olmasını vurğulayır. Aparılan araşdırmalar nəticəsində Qoroşko göstərir ki, dilin mövcud olduğu mühit araşdırma obyektinə öz tələblərini tətbiq edir. Son olaraq Y.İ.Qoroşko qeyd edir ki, "metodologiyada baş verən bu cür dəyişikliklər dilçilikdə yeni istiqamətin yaranmasına yol açа bilər" [13, s.234].

Müasir informasiya texnologiyaları dövründə yaşayan insanlara aid əsas koqnitiv və mental modelləri əks etdirən elektron ünsiyyət bu xüsusiyyətləri ilə seçilir: antroposentriklik, sosial fəaliyyətə daxil olunma, dialoqluq, müəllifliyin xüsusi olması, müəllif-oxucu şəxsiyyətlərinin birləşməsi, qabarıq şəkildə büruzə verilən subyektli avtorizariya kateqoriyasının mövcudluğu, təsvir obyekti haqqında xüsusi görüş, zaman və məkan hüdudlarının olmaması, iştirakçıların status eyniliyi, nitq eyniliyi, dil vasitələrinin seçimində sərbəstlik,

İnsana hesabın təbii ilkin nöqtəsi olaraq yanaşma onu göstərir ki, müasir dövrün insanı hadisələri və ümumiyyətlə, tarixi dəyişmək xüsusiyyətinə malikdir. O, ictimai fikrin formalaşmasında, müxtəlif layihələr və qanunların hazırlanmasında, seçki və referendumların keçirilməsində aktiv iştirak edir. Müzakirə olunan hər hansı bir məsələ insan münasibətləri və dəyərləri baxımından öz həllini tapır. Şəxsi rəy və mövqe barədə qarşı tərəfin sivil yolla məlumatlandırılması məhz dialoq vasitəsilə mümkündür [1]. Elektron ünsiyyətin hər bir iştirakçısı müasir dünyada insanın yerini müəyyən etmək məqsədilə, əbədi və daim aktual olan: "Həyatın

mənası nədədir?" sualına cavab tapmağa çalışır. Həmsöhbətlər insanlıq üçün mühüm olan bu suala hətta müxtəlif mövzuların müzakirəsi zamanı da cavab axtarırlar.

İnsan reallığı faktlar vasitəsilə qavramaqla yanaşı, həm də bu reallığı özündə əks etdirir. Möhkəm vətəndaş poeziyasının əmələ gəlməsi, bütöv bir fikir və baxış sisteminin formalaşması virtual məkanda baş tutan ünsiyyətin nəticəsidir. Dünyanı onun tərkib hissələrinin müxtəlifliyi ilə qavrayan, onun inkişaf qanunauyğunluqlarını müəyyən edən, insan, dünyəvi və milli dəyərlər məkanına daxil olur. Virtual icma subkulturu ilk olaraq oxşar maraqları, baxışları, peşəkar asılılıqları olan, yəni harmonik əməkdaşlıq və anlaşmaya köklənmiş insanları birləşdirərək, kommunikantların dünyagörüşü və baxışlarının təkamülünə təsir edir.

Dialoqluq mətnin inkişafını, nitq strukturunun heterojenliyi və ümumi düşünmə prosesinə daxil olunmağı təmin edən mətndaxili mexanizm kimi nəzərdən keçirilir [14, s.9]. Dialoq sivilizasiyanın əsas metaforu və mərkəzi fəlsəfi anlayışına çevrilir. "Dialoq şəxsiyyətin özünü həyata keçirilməsidir" [16, s.188]. Dialoqun antroposentrik aspekti bu formulda açılır: "Yalnız ünsiyyətdə, insanın insanla qarşılıqlı əlaqəsi nəticəsində həm özü üçün, həm də digərləri üçün "insan içində insan" aşkara çıxır" [9, s.294]. Şəxsiyyət yalnız ünsiyyətdə və digər şəxslərə qarşı özünü göstərir. Ünsiyyət, aralarında struktur, semantik və funksional planlarla müəyyən edilmiş, bir-birini tamamlayan replikaların cəmi şəklində çıxış edir. Elektron ünsiyyət son dərəcə məsul söz sahəsinə çevrilir, çünki əsl dialoqluq sadəcə sual-cavab deyil, həm də qarşı tərəfə olan məsuliyyət cavabdehliyidir. Dialoji nitqdə iştirakçı tərəflər yalnız informasiyanın ötürülməsi ilə kifayətlənmirlər. Hər bir kommunikant müsahibənin hisslərinə təsir göstərməyə çalışır [2, s.21].

Virtual diskursda müəllif yerində qaynar mübahisələr, müzakirələr, müqayisələr edən, hər hansı bir kollektivi təmsil edən şəxsiyyət dayanır. Onun tonallığının diapozonu olduqca genişdir: konfliktli, ironik, maarifləndirici, təəccübləndirici, minor, çağırıcı tonlarda ola bilir. Virtual mətnin müəllifi hər zaman müəyyən həyat təcrübəsinə, dünyagörüşünə, fikirlərinə, hisslərinə və s. sahib canlı şəxsdir. Eyni zamanda bu müəllif həmsöhbətləri tərəfindən qayğı və simpatiya göstərilməsinə ehtiyac duymur. O, ünsiyyətə açıqdır və öz davranışlarında çox sərbəstdir, stereotiplərdən, başqalarının fikir və mühakimələrindən asılı deyil.

Elektron ünsiyyət zamanı mətnin yazılması və oxunması eyni vaxtda baş verir. Müəllif-oxucu digər iştirakçıların mesajlarını cavablayarkən gedişatın axınına qarışır və bu zaman o müəlliflərə xas olan təkrarolunmazlíq xüsusiyyətini itirir. Bu zaman ünsiyyətin bütün iştirakçıları hazır mətndə bir bütövə çevrilirlər.

"Mən" danışanı ifadə edir və "mən" haqqında deyiləni nəzərdə tutur: "mən" dedikdə özün haqqında danışmamaq mümkün deyil" [10, s.262]. Virtual müəllif hər hansı bir personaj və ya müəyyən şəxs adından çıxış edərək elektron mətni subyektivlik rənginə boyayır. Bu hisslər palitrası quru fakt sadalanmalarından pafosa qədər olan rəng müxtəlifliyini özündə əks etdirir. Hər hansı bir mesaj refleksivdir, insanın daxili aləminin açılmasına və onun müasir dünyada yerinin dərk edilməsinə yönəlmişdir. Eyni zamanda istifadəçi çoxsaylı elektron icma iştirakçılarından biri olaraq ümumi fonda seçilməyə can atır.

İnsan kommunikantlara müxtəlif təzahürlərdə maraqlıdır: cəmiyyət, güc, toplum nümayəndəsi, sosial məxluq və öz unikal bilik və bacarıqlarını daim nümayiş etdirən şəxsiyyət kimi. Lakin virtual mühitdə hər bir iştirakçı obyekt kimi ortalama abstrakt sifət deyil, məhz özünü görmək istəyir. Buna görə şəxsi gözləntilər, fikir və təcrübə bu cəmiyyətdə baş verən hadisələrə təsir göstərir. Tipik insan özünün bənzərləri arasında arxa plana keçir, müəllifin nəzəri şəxsiyyətinə yönəlmiş olur. Bəzən bu hal narsisizm əlaməti kimi ünsiyyət iştirakçısının öz dediklərindən zövq almasında özünü göstərir.

Hər hansı bir diskursun qurulmasında əhəmiyyətli olan bu iki ölçü virtual mühitdə fərqli məzmun standartları ilə seçilir. Virtual dünyada məkan subyektdən asılı olmayan verilənlərdən hesab olunur. Məkan özü onda məskunlaşmış obyektlər kimi qurulmağa, modelleşdirilməyə məruz qalan təsvirə çevrilir. Məkanı əlaqələr hüdudsuz və məntiqi qanunlarsız müntəzəm olaraq müəyyənləşdirilir və qurulur. Obyektlər məkanda sadəcə məskunlaşmır, onda əmələ gəlmələri ilə buranı dəyişdirə bilirlər. Virtual zaman insan tərəfindən aktual olaraq "burada və indi" var olan, keçmiş və gələcəyə sahib olmayan, "mövcudluğun ziyarət olunma, ekzistensiyanın isə anonimlik

ilə əvəz olunması" anlayışıdır [15, s.117]. Əgər gündəlik həyatda müxtəlif zamanlarda baş verən hadisələr arasında əlaqə tapılmırsa, virtual mühitdə baş verən hadisələr bir-birində əks olunur. Bir zaman əvvəl yazılanlar indi və gələcəkdə baş verəcəklərə təsir edə bilər. Burada hər şey sıx düyünlənərək əbədilikdəki kimi zamansız və aktual olaraq mövcuddur.

Virtual mühitdə hər hansı bir şərtlənmələr mövcud deyil. Avtoriteti yalnız öz unikal nitq mədəniyyəti ilə qazanan elektron ünsiyyət iştirakçıları bu demokratik ünsiyyət tərzinin tələb etdiyi qaydalara uyğunlaşaraq digər iştirakçılara hörmətlə yanaşmalıdır. Virtual şəxsiyyətlər öz savad səviyyələri, bilikləri və vəzifələrindən asılı olmayaraq, baxışını problemə alternativ həll tapmaq üçün fikir bildirmək, məsələyə öz nöqtəsini müdafiə etmək və narazılığını bildirib həmsöhbətin fikri ilə razılaşmamaq kimi hüquqları vardır. Virtual icmalara daim nəzarət aparan administratorlar qeyri-senzur ifadələr işlədib digərlərini təhqir edən "kobud" iştirakçıları səhifədən və qrupdan uzaqlaşdırmaq hüquqlarına sahibdirlər. Əksinə kompromis xarakterli ibrətamiz hərəkətlər daim dəstəklənir və məqbul hesab olunur.

Ünsiyyət zamanı göndərənin və alıcının "dünya modelləri" bir-biri ilə kəsişsə də, biri digərini təkrarlamır. Baxış bucağı, düşüncə tərzi, məqsəd və qanunların birliyi qrup üzvlərinin nitq fəaliyyətində əks olunur. Kiçik qrupun xarakterik xüsusiyyəti kimi onun nitq eyniliyi çıxış edir. Bu xüsusiyyət M.A.Vasilik tərəfindən kontaktların mütəmadiliyi, uzunmüddətliliyi və birliyi faktorları ilə müəyyən edilir [12, s.412]. Virtual şəxsiyyətin nitqində xüsusi kommunikativ kod işlənir ki, o yalnız "özününkülərə" və "məlumatlı"lara aydındır. Kompüter jarqonu, yumor, kalambur müəyyən mənada şəxsiyyətlərin hansı icmaya aid olduqlarının indikatorudur. Kiçik qruplarda nitq kommunikasiyasının digər xüsusiyyəti qiymətləndirici və xarakterizəedici sözlərin çoxluğudur. İnsanların ümumi təcrübə və maraqlarla birləşdiyi İnternet icmalarında vacib olan söhbəti getdiyi predmetin adı deyil, daha çox onun səciyyəvi xüsusiyyətləri, yəni haqqında olan məlumatdır. Beləliklə, bu cür qrupların üzvləri ümumi leksik təcrübə və tezaurusa sahibdirlər.

Kommunikantlarda yaranan tam sərbəstlik illuziyası, real dünyadan fərqli, öz fikir, zövq və maraqlarına uyğun şəxsi dünyasını yaratmaq imkanının olmasında təzahür olunur. Subyektlərin kommunikativ davranışı bu mühitdə individual nitq manerası əldə edərək tamamilə azad tərzdə baş verir. Bu, özündə istifadəçinin nitq hərəkətləri və şəxsiyyəti haqqında məlumat daşıyan təxəllüs və ya müasir terminlə desək, nik seçiminə qeyri-standart yanaşmada əks olunur. Həmsöhbətlərin mesajlarının dil tərtibatına bu cür maskalı yanaşma, birincisi, müəllifin individual nitq imicinin, ikincisi isə, yadda qalmaq, fərqlənmək kimi istəyinin olmasından xəbər verir. Müəlliflər tərəfindən məşhur aforizmlər, deyim və sitatların interpretasiya olunması maraq doğurur. Çox zaman elektron ünsiyyət iştirakçıları məşhur filmlərdən, əsərlərdən və mahnılardan götürülən hamıya tanış olan misraları dəyişdirərək istifadə edirlər.

Nəticə: Beləliklə, elektron ünsiyyət müasir dövrdə informasiya mübadiləsinin əsas vasitələrindən birinə çevrilmişdir. Onun dialoqluq, müəlliflik və oxucu münasibətlərinin yeni forması, zaman və məkan məhdudiyyətlərinin olmaması kimi xüsusiyyətləri bu ünsiyyət növünü ənənəvi formadan fərqləndirir. Eyni zamanda, sosial fəaliyyətə geniş daxilolma və iştirakçıların status bərabərliyi kimi cəhətlər elektron ünsiyyəti daha demokratik və açıq edir. Dil vasitələrinin sərbəst seçimi və dünyanın ümumi rəsminin formalaşmasına təsiri isə bu ünsiyyət növünün mədəni və sosial aspektlərini ön plana çıxarır. Bütün bu xüsusiyyətlər göstərir ki, elektron ünsiyyət təkcə texnoloji yenilik deyil, həm də cəmiyyətin ünsiyyət tərzinə ciddi təsir göstərən sosial-mədəni hadisədir. İnternetin inkişafı ilə elektron ünsiyyət də daim inkişaf edir və elmi maraqların mərkəzində yerləşir.

Ədəbiyyat siyahısı

1. Həsən, M. X. Dialoq mədəniyyəti və metodoloqiyası / Tərcümə edən və redaktor: Elvüsal Məmmədov.−Bakı: –2011. – 228 səh.
2. İsmayılova M. Müxtəlifsistemli dillərdə dialoqların struktur-semantik xüsusiyyətləri (Azərbaycan və ingilis dillərinin materıalları əsasında). Filol. üzrə fəls. dokt. elmi dər. almaq üçün təqd. ol. diss. avtoref.

3. Baron, J. Thinking and Deciding. Cambridge University Press, – 2008. – 600 p.
4. Crystal D. Language and the Internet. Cambridge University Press, 2007, 318 pages
5. Danet, B., Herring, S.C. (2007). The multilingual internet: Language, culture, and communication online. Oxford University Press.
6. Herring, S.C. Computer-mediated discourse. In D. Tannen, D. Schiffrin, & H. Hamilton (Eds.), 2001. The handbook of discourse analysis (pp. 612-634). Blackwell.
7. Herring, S. C. Foreword. In S. Kelsey & K. St. Amant (Eds.), *Handbook of Research on Computer-Mediated Communication.* 2008. Idea Group, Inc. Preprint: https://homes.luddy.indiana.edu/herring/foreword.CMC.hb.pdf
8. Tagliamonte, S.A. So sick or so cool? The language of youth on the Internet. In Teen talk: The language of adolescents (pp. 106-127). 2016. Cambridge University Press.
9. Бахтин М.М. Проблемы творчества Достоевского. Киев, «NEXT», 1994. 508 с.
10. Бенвенист Э. Общая лингвистика. М.; Прогресс, 1974. 447 с.
11. Варшавская А.И. Диалектика текста. Спб.: Из-во С.–Петер. ун-та, 1999. 328 с. Василик М.А. Основы теории коммуникации: Учебник /. М.: Гардарики, 2003. 615 с.
12. Василик М. А. (ред.) Основы теории коммуникации: Учебник. – М.: Гардарики, 2003. – 615 с.
13. Горошко Е.И. Лингвистика Интернета: формирование дисциплинарной парадигмы. Сборник науч. ст. - Саратов: Издательский центр Наука, 2007. Вып. 5, Жанр и культура.
14. Коньков В.И. Речевая структура газетного текста. СПб.: Изд-во Санкт-Петербургского ун-та, 1995. 160 с.
15. Лещев С.В. Коммуникативное, следовательно, коммуникационное: Монография. М.: Эдиториал Урсс, 2002. 172 с.
16. Микешина Л.А., Опенков М.Ю. Новые образы познания и реальности. М.: «Российская политическая энциклопедия», 1997. 240 с.

Нигяр Нагиева

Основные характеристики нового вида коммуникации: электронное общение

Резюме

Электронная коммуникация – новый вид связи, обеспечивающий быстрый и бесперебойный обмен информацией. Эта форма общения устраняет ограничения во времени и пространстве, люди могут общаться откуда угодно. В электронном общении широко используются письменные и изобразительные средства, что позволяет более четко передавать идеи. Социальные сети, электронная почта и приложения для обмена сообщениями являются основными платформами для этого вида общения. Поскольку электронное общение также допускает анонимность, иногда это может повлиять на искренность общения.

В статье упомянуты основные особенности электронной коммуникации и даны их пояснения.

Ключевые слова: *коммуникация, интернет, технологии, речь, пространство.*

Nigar Naghiyeva

The main characteristics of a new type of communication: electronic communication

Summary

Electronic communication, a new type of communication, provides fast and uninterrupted information exchange. This form of communication eliminates time and space limitations, people can communicate from anywhere. Written and visual means are widely used in electronic communication, which makes it possible to convey ideas more clearly. Social networks, e-mail and messaging applications are the main platforms for this type of communication. Since electronic communication also allows for anonymity, it can sometimes affect the sincerity of communication.

The main features of electronic communication are mentioned in the article and their explanations are given.

Keywords: *communication, internet, technology, speech, space.*

Çapa tövsiyə edən: ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***professor M.Mahmudov***
dosent R.Heydərov